UOT 81
https://doi.org/10.59849/2311-8482.2025.4.120

CAVANŞİR ZEYNALLI*

# HƏRBİ İXTİSAS FƏNLƏRİNİN TƏDRİSİ PROSESİNDƏ TERMİNOLOGİYA

*Ümummilli liderimiz Heydər Əliyev gənclərə vətənpərvərliklə bağlı fikirlərini belə bildirmişdir: "Birinci növbədə hər bir gənc vətənpərvər olmalıdır. İndi Azərbaycan müstəqil dövlət kimi yaşadığı zamanda vətənpərvərlik hər bir insanın, xüsusən hər bir gəncin ən ümdə borcu, vəzifəsi olmalıdır. Ancaq vətənpərvərlik gərək insanın özündə olsun. Borc o demək deyildir ki, vətənpərvərlik tələb edirsən, o da vətənpərvər olur.*

***Açar sözlər:*** *Vətən, vətənpərvərlik, vətənin çiçəklənməsi, dövlət, sədaqətli, ətraflı, termin, lüğət, millət, təəssübkeşlik və s.*

Vətənpərvərlik sözündə dərin məna var. Bir kəlmə sözün qeyri-adi qüvvəsi bundadır ki, bu gücə malik olanlar Vətən uğrunda ölməyi ən böyük şərəf bilirlər. Onlar doğma Vətənin çiçəklənməsi, qüdrətlənməsi naminə çalışır, fədakarlıq göstərirlər. Vətənpərvər olan insan hansı ixtisasa yiyələnirsə yiyələnsin, hansı sahədə çalışırsa çalışsın onun üçün bir amal olur. Vətənə ləyaqətlə xidmət etmək, dövlətə sədaqətli olmaq, ümummilli mənafeyi şəxsi lazımdır istəkdən uca tutmaq. Bu anlayış tarixin müəyyən dönəmlərində fərqli mənalarda işlədilib və bunun mənası dövrün şərtlərinə, coğrafiya və cəmiyyətlərinə fəlsəfəsindən olduqca asılıdır. Millətçilik hisslərinə yaxın anlayış kimi qəbul edilsə də/, vətənpərvərlik heç vaxt milliyyətçi təbliğ edən anlayış olmayıb.

Əlbəttə, vətənpərvərlik işinin keyfiyyəti o yerdə yüksək olur ki, orada müəllim-tələbə üçün nümunədir. Ona görə də müəllim əxlaqi, davranışı ətrafdakılara münasibəti, bir sözlə, özünün xarici və daxili vəziyyətləri ilə nümunə olmalıdır. Əgər müəllim daxilən saf, pak olarsa ətrafdakılara mərhəmətli, mehriban rəftar edərsə onun tələbləri də vətənpərvər olar.

Ümummilli lider Heydər Əliyev həmişə gənclərə Vətən torpağını, dövlətimizi, millətimizi sevməyi tövsiyyə etmiş və göstərmişdir ki, müstəqilliyimizin qorunması və inkişaf etdirilməsi vətənpərvər tərbiyəsindən, o cümlədən böyüyən nəslin hərbi-vətənpərvərlik tərbiyəsindən çox asılıdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra hərbi-vətənpərvərlik tərbiyəsinə diqqət daha da artmışdır. Bu təbiidir. Xalqımız yalnız vətənpərvər övladların sayəsində öz ərazi bütövlüyünü qorumağa qadir olduğunu bilir. Ona görə də hazırda təhsilin bütün pillələrində başlıca məqsədlərdən biri vətənpərvərlik tərbiyəsidir.

Təcrübə göstərir ki, tələbələrə hərbi-vətənpərvərlik tərbiyəsini aşılayarkən hər şeydən əvvəl ayrı-ayrı qəhrəmanların həyat yollarından bəhs etmək, onların döyüş yolunu göstərmək, düşmənə qarşı mübarizədə əldə etdiyi uğurları şərh etmək müsbət nəticələr verir. Məhz bu zaman məktəblilərdə Vətən, dövlət, millət təssübkeşliyi artır, onlar Azərbaycanın vətəndaşı, türk övladı olduqlarına görə iftixar hissi keçirirlər. Məsələn, Tomrisin, Cavanşirin, Səmədbəy Mehmandarovun, Əliağa Şıxlınskinin, Xosrov Sultanovun, Həzi Aslanovun, İsrafil Məmmədovun, Baloğlan Abbasovun, Əlif Hacıyevin, Tofiq Hüseynovun, Çingiz Mustafayevin və bir çox başqalarının göstərdikləri qəhrəmanlıqlar şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsində ən yaxşı ümdə rolunu oynayır. Hərbi-vətənpərvərlik tərbiyəsində müəllim-tələbə münasibətlərinin düzgün qurulması əsas şərtlərdən biridir.

Hər şeydən əvvəl, müəllim dediyi sözlərin məsuliyyətini, ağır çəkisini başa düşməli, tələbələrdə özünə inam yaratmalıdır. Tələbələr müəllimin sözlərinin səmimiliyinə, həyatiliyinə inanmalı, onu vətənpərvər bir şəxsiyyət kimi qəbul etməlidirlər. Əgər müəllimin sözü ilə əməli arasında ziddiyyət olarsa, şagirdlər bunu mütləq sezərək və müəllimin fikirlərinə əhəmiyyət verməyəcəklər. Tələbə hiss etməlidir ki, Vətən uğrunda döyüşlərdə, torpaqlarımızın bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlarda müəllim özü də, övladaları da iştirak etməyə, canlarından keçməyə hazırdır. Bu mübarizədə hər bir kəs "Vətən uğrunda ölümə gedirəm" prinsipini qəbul etməlidir. Məhz o zaman tələbələr müəllimin həqiqi vətənpərvər olduğunu başa düşəcək, onun sözlərini birmənalı olaraq qəbul edəcəklər.

Müasir dövrdə hərbi-vətənpərvərlik tərbiyəsinin əsas vəzifəsi gənclərin Azərbaycan Silahlı Qüvvələrində xidmətə hazırlaşdırmaqdan, Azərbaycan ordusuna məhəbbət ruhunda tərbiyə

etməkdən, onlarda öz Vətəninə mənsubiyyətdən irəli gələn yüksək iftixar hissi və Vətənin müdafiəsinə daim hazır olmaq əzmi formalaşdırmaqdan ibarətdir. Ali məktəbdə hərbi-vətənpərvərlik tərbiyəsi əsasən ibtidai hərbi hazırlıq dərslərində, habelə digər fənlərin tədrisi prosesində həyata keçrilir. Hərbi hazırlıq dərslərində tərbiyə işi hərbi-didaktik prinsiplər əsasında aparılır, tələbələrə hərbi bilik və bacarıqlar verilir.

Razılıq hissi ilə qeyd etmək lazımdır ki, son illər respublikamızın ali məktəblərində tələbələrin hərbi-vətənpərvərlik tərbiyəsinin keyfiyyəti durmadan yaxşılaşmaqdadır. Öz işini məktəb islahatının tələbləri səviyyəsində qurmağa çalışan pedaqoji kollektivlər tərbiyə işinin bu mühüm sahəsinin səmərəliliyini daim artırmağa diqqət yetirirlər. Hərbi işə maraq tərbiyə etməyə çalışırlar. Məktəbdə yaxşı bir maraq yaratmaq lazımdır. İstər məzuniyyətdən buraxılmış və istərsə də ordu sıralarından tərxis olunmuş əsgərlərlöə ali məktəb tələbələrinin təntənəli görüşü keçirilir. Belə görüş tələbələrdə hərbi-vətənpərvərlik hisslərinin qüvvətlənməsinə böyük kömək göstərir. Tələbələrin hərbi-vətənpərvərli tərbiyəsi məktəbdənkənar tədbirlərində böyük rolu vardır. Hərbi-vətənpərvərlik tərbiyəsinin məktəbdənkənar formalarında söhbətlər, mülahizələr, çıxışlar, nəzəri konfranslar, inqilab veteranları ilə, habelə vətəndaş və Böyük Vətən müharibəsi iştirakçıları, əmək qabaqcılları, yarış qalibləri ilə görüşlər, döyüş və əmək şöhrəti yerlərə yürüşlər, "Üfüqdə parıltı", "Qartal balası" hərbi idman oyunları, hərbi işin və hərbi texnikanın öyrənilməsinə xidmət edən vətənpərvərlik mövzularına həsr olunmuş toplantıları döyüş və əmək şöhrəti muzeylərinin yaradılması, hərbi-vətənpərvərlik mövzularına aid ən yaxşı şeir, rəsm və fotoşəkillərin müsabiqəsini keçirmək, müharibə veteranlarına və müharibədə həlak olanların hamilik yardımı göstərmək, çağırışçıları ordu sıralarına yolu salınması və digər iş formaları daxildir. Kütləvi tədbirlərin müxtəlif formaları içərisindən hərbi-vətənpərvərlik tərbiyəsi istifadə etmək mühüm şərtlərdən biridir. Yuxarıda göstərdik ki, tələbələrin hərbi-vətənpərvərlik tərbiyəsi həyatımızın bütün sahələrində və ali məktəblərində, təlim-tərbiyə müəssisələrində, idman bölmələrində, nəhayət, ailədə keçirilməlidir.

Ailədə aparılan hərbi-vətənpərvərlik tərbiyəsi üzrə işin formaları mahiyyət etibarilə formalara oxşayır, lakin ailə şəraitində həyata keçirilən vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsi hərbi hazırlıq kursunun proqram çərçivəsində aparılan hərbi-vətənpərvərlik tərbiyəsindən bir sıra üstün cəhətləri ilə fərqlənir. Ali məktəbələrdə və digər tərbiyə ocaqlarında formalaşıb möhkəmlənəcək hərbi-vətənpərvərlik tərbiyəsi üçün bünövrə ata, ana və ailənin digər yaşlı üzvləri tərəfindən qoyulur, lakin bu iş xüsusən bədən tərbiyəsi müəllimi, hərbi rəhbər, valideyn yığıncaqlarında, görüşlərdə valideynlərə müəyyən istiqamət verilməli, lazımi kömək göstərilməlidir. Müharibədə olmuş və yaxud hazırda hərbi hissələrdə qulluq edən rütbəli qohum və tanışların söhbətləri hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Belə söhbətlər gənclərdə hərbi-vətənpərvərlik hissləri oyadır. Gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə ciddi fikir verilməlidir. Müxtəlif adda və məzmunda stentlər, guşələr yaradılmalıdır. "Azərbaycanın generalları və sərkərdələri", "416-cı qırmızı bayraq ordenli Taqanrak diviziyası", "Nəsillərə nümunə", "Rayon veteranları", "Azərbaycan ordusunda xidmət edən məzunlar", "Məktəbin məzunları", "Həzi Aslanovun döyüş yolu" stentləri diqqəti cəlb edir. Tarixi yaradn da, yaşadan da xalqın özüdür. Hər hahnsı bir xalqın tarixi dünya xalqları arasında o vaxt özünə layiqli yer tutur ki, bu tarix Vətən və millət mərfumları ilə sıx bağlı olsun, vətənpərvərlik çox geniş anlayışdır və qədim tarixə malikdir. Vətənpərvərlik ən yaxşı ənənənləri özündə əks etdirməklə insanlarda keçmiş tarixi irsə məhəbbət oyadır. Bu hiss insanları Vətən yolunda misilsiz qəhrəmanlığa və fədakarlığa ruhlandırır, yüksək vətəndaşlıq, namus, qeyrət, çətin anda cəsarət, əyilməzlik, döyüşkənlik, məğrurluq hissləri aşılayır.

Vətənpərvərlik Vətənə, doğma torpağa, xalqa, onun dilinə, adət-ənənələrinə, mədəniyyətinə, tarixinə məhəbbət deməkdir. Hələ qədim vaxtlardan Azərbaycanda elə nəsillər, elə qəbilələr olmuşdur ki, onlar öz döyüşkənliyi ilə təkcə Qafqazda yox, hətta bütün dünyada tanınmışlar. Naxçıvanda Kəngərlilər, Bakıda Bakıxanovlar, Qazaxda Şıxlınskiloər və Vəkilovlar, Borçalıda Yadigarovlar, Şəkidə Çələbilər, Gəncədə Cavadxanovlar, Qarabağda Cavanşirlər, Lənkəranda Talışınskilər kimi el qeyrətini çəkən, Vətən torpağını təhlükə gözləyəndə birləşib ayağa qalxan, onun hər qarışı uğrunda canlarından keçən oğulolar yetişib. Ümummilli liderimiz Heydər Əliyev gənclərə vətənpərvərliklə bağlı fikirlərini belə bildirmişdir: "Birinci növbədə hər bir gənc vətənpərvər olmalıdır. İndi Azərbaycan müstəqil dövlət kimi yaşadığı zamanda vətənpərvərlik hər bir insanın, xüsusən hər bir

gəncin ən ümdə borcu, vəzifəsi olmalıdır. Ancaq vətənpərvərlik gərək insanın özündə olsun. Borc o demək deyildir ki, vətənpərvərlik tələb edirsən, o da vətənpərvər olur. Yox! Mən bunu deyərkən bildirmək istəyirəm ki, bütün təhsil ocaqlarında gənclərlə məşğul o9lan bütün təşkilatlarda vətənpərvərlik hissinin aşılanması vətənpərvərlik hissinin hər bir gəncin qəlbində olması üçün lazımi tədbirlər görmək lazımdır". İnsana məxsus mənəvi keyfiyyətlər içərisində vətənpərvərlik hissi mühüm yer tutur. Bu müqəddəs hissin uşaqlarda lap kiçik yaşlarında tərbiə edilməsi böyük əhəmiyyət kəsb edir. Kiçikyaşlı uşaqlar Vətən haqqında biliklərini ilk əvvəl ailədə, uşaq bağçasında, sonra məktəbdə daha sonra isə kitabxanalarda zənginləşdirirlər. Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik tərbiyəsini formalaşdırmaq üçün ilk əvvəl onlara Vətənimizi, dilimizi gözəlliklərindən danışmaq, təbiəti sevməyi öyrənmək lazımdır. Onlara Vətən haqqında şeirlər əzbərlətməli, nağıllar oxumalı, qəhrəmanlıqlardan danışılmalıdır. Bu gün məktəbəqədər yaşlı uşaqlar Azərbaycanın dövlət himni oxuya bilirsə, demək biz vətənpərvər olmağa layiq nəsil tərbiyə edirik.

Bu gün vətənimizin, ürəyimizin bir parçası olan müqəddəs torpaqlarımızın 20 faizi işğal edildiyi, bir milyondan artıq qaçqın və köçkünlərimizin olduğu bir dövrdə Azərbaycan gəncliyinin düşmənə qarşı mübarizə əzminin artırılması, onun hərbi-vətənpərvərlik ruhunun gücləndirilməsi günümüzün ən aktual mövzusudur. Tarix boyu xalqımız Vətənə məhəbbət, vətənpərvərlik hissi ilə doğma yerlərə və adamlara bağlılıqdan başlayaraq bütün qüvvə və qabiliyyətini Vətənin, xalqın mənafeyi uğrunda mübarizəyə qədər yüksəlmişdir. Əgər xalqımız vətənpərvər olmasaydı, əliyalın yurddaşlarımız 1990-cı ilin 20 yanvar gecəsi sinələrini düşmən gülləsinə sipər etməzdilər. Xalq şairi B.Vahabzadənin həmin illərdə qələmə aldığı "Şəhidlər" poeması uşaqların vətəndaşlıq, milli qürur və ləyaqət hissi tərbiyəsində böyük təsir gücünə malikdir. Müqəddəs and yerimiz olan "Şəhidlər xiyabanı" Azərbaycanımızın ürək yanğısıdır. Od nəfəsli Bakımızın ən yüksək zirvəsində yerləşən "Şəhidlər xiyabanı" kimi and yerlərimiz respublikamızın hər rayonunda var. Gənclərin, məktəblilərin Şəhidlər xiyabanını sıx-sıx ziyarət etməsi onları mənən paklaşdırır, əxlaqi baxımdan təmizlənməyə sövq edir. Oraya qədəm qoyan hər bir kəs milli qürur hissi keçirir. Şəhidlərimizin "İntiqamımızı al, torpaqlarımızı dardan qurtar" -deyən gözlərinə baxan gənc dərk edir ki, Vətən hamımızındır. Hamılıqla mübarizəyə qalxıb ən müqəddəs Vətənimiz olan Azərbaycan torpaqlarını qorumalıyıq. Bu gün hər sahədə bizə öyrənc olan xalqımızın qəlbində daimi yer tutan heç bir zaman unudulmayan ulu öndərimiz Heydər Əliyevin keçdiyi və seçdiyi həyat yolu, Vətən torpağına olan təəssübkeşlik, onun azadlığı uğrunda apardığı mübarizə və quruculuq işləri yeniyetmə və gənclərimiz üçün əsl vətənpərvərlik məktəbidir. Vətən və əqidə yolunda, xalq işi uğrunda dönməzlik Heydər Əliyev şəxsiyyətində ən sanballı nümunəsidir.

Hazırda bəşəri və milli dəyərlərə söykənərək ali məktəblərin dərsliklərində hərbi-vətənpərvərlik tərbiyəsinə dair material olduqca çoxdur. Dərsliklərdə Azərbaycan ordusu haqqında xeyli şeirlər, hekayələr və oçerklər verilmişdir. Tələbələr bunların vasitəsilə Vətən, xalq, Azərbaycan tarixi qəhrəmanları, Azərbaycan ordusu haqqında xeyli biliyə yiyələnirlər. Belə mətnləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Azərbaycan Silahlı Qüvvələri haqqında məlumat.
2. Azərbaycan ordusunun qoşun növləri haqqında məlumat.
3. Qəhrəman Azərbaycan ordusunun tarixi və döyüş yolu haqqında məlumatlar.

Bunların hansı tələblərdə Vətənə məhəbbət bəsləmək, onun silahlı qüvvələrinə hörmət etmək hissələrini qat-qat gücləndirir.

Gənclərin vətənpərvərlik tərbiyəsi danışıqsız olaraq birinci növbədə məktəbin üzərinə düşür. O, Vətənə məhəbbət, onun taleyi üçün məsuliyyət daşımaq və vətəndaşlıq borcu kimi hissləri tələbələrdə möhkəmləndirməli və inkişaf etdirməli, tələbələrə Vətəni müdafiə etmək bacarığı verməlidir.

Vətənpərvərlik tərbiyəsinə və onun tərkib hissəsi olan hərbi-vətənpərvərlik tərbiyəsi ilə bütün pedaqoji kollektiv, birinci növbədə tarix, ədəbiyyat, coğrafiya müəllimləri məşğul olmalıdırlar. Tələbələrin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm yer vardır. Ədəbiyyatın tədrisində tələbələrin bilavasitə Vətənimizin azadlığı uğrundakı mübarizənin ümumiləşmiş obrazları ilə tanış olur. Onlar4ın nümunəsində cəsurluq, qəhrəmanlıq əsgəri, igidlik ruhunda tərbiyə olunurlar. Digər tərəfdən ədəbiyyatın tədrisi tələbələri Vətənə daha da dərindən bağlamağa, onun şərəf və namusunu əziz tutmağa Vətənin keşiyində möhkəm dayanmağa ruhlandırır. Məhz onun bu kimi tərbiyəvi təsir

gücünün böyüklüyünü nəzərə alaraq, müəlliflər ayrı-ayrı siniflər üzrə dərsliklərə xeyli miqdarda hərbi vətənpərvərlik mətnləri yetirmişdir. Bunlar bizim qəhrəman keçmişimizi əks etdirən "Dədə Qorqud" dastanından başlayaraq bu günün fatehlərinin qəhrəmanlığınadək böyük bir dövrü əhatə edir.

Ali məktəblərdə hərbi-vətənpərvərlik tərbiyəsi üçün ədəbiyyat dərsliklərinə salınmış mövzuları mənbələrinə görə belə qruplaşdırmaq olar.

1. Şifahi xalq ədəbiyyatından hərbi-vətənpərvərlik nüunələri.
2. Azərbaycan klassiklərinin əsərlərində hərbi-vətənpərvərlik nümunələri
3. Sovet hakimiyyəti dövründə Azərbaycan yazıçılarının əsərlərində hərbi-vətənpərvərlik nümunələri.
4. Dünya ədəbiyyatında hərbi-vətənpərvərlik nümunələri.

"Tarix" dərslikləri bu cəhətdən mühüm əhəmiyyət kəsb edir. "Tarix" dərsliklərində verilən hərbi-vətənpərvərlik mövzularını xarakterik xüsusiyyətlərinə görə 10 qrupa ayrılır:

1. Azərbaycan xalqının tarixi qəhrəmanlıq ənənələrini əks etdirən mövzular.
2. Azərbaycan Demokratik Respublikasının tarixinə dair mövzular.
3. Azərbaycan Müstəqil Demokratik Respublikasının yaradılması uğrunda mübarizəni əks etdirən mövzular.
4. Erməni soyqırımına, deportasiyaya həsr olunmuş mövzular.
5. Azərbaycan torpaqlarını zaman-zaman mərhələlərlə zəbt edilməsinə dair mövzular.
6. Erməni işğalında olan torpaqlarımızın azad olunması uğrunda mübarizəyə həsr edilmiş mövzular.
7. Azərbaycan ordusuna həsr edilmiş mövzular.
8. Gənclər xalqımızın milli ənənələri, milli mənəvi dəyərləri əsasında tərbiyələnmələrinə dair mövzular.
9. Milli vətənpərvərlik Azərbaycanın hər bir vətəndaşının, hər bir gəncinin həyatının əsas prinsipinə dair mövzular.
10. Gəncləri, xüsusən milli vətənpərvərlik, hərbi vətənpərvərlik ruhunda tərbiyələndirməsinə dair mövzular.

Müasir dünyada elm və texnikanın sürətlə inkişaf etdiyi indiki dövrdə və Azərbaycanda azad, süveren, müstəqil və demokratik respublika yarandığı bir dövrdə çağdaş hərbi quruculuq texnikaya istinad edir. Radiotexnika, elektrotexnika, tele-texnika, Faks internet, kompyuter, kibernetika və s. sahələr hərbi hissələrlə hər bir əsgərin gündəlik fəaliyyət sahəsidir! Bu baxımdan hazırda hərbi-vətənpərvərlik tərbiyəsinin başlıca vəzifələrindən biri də tələbələrin həmin texniki cihazlarla tanış etmək və onların idarə olunmuş sistemlərini öyrətməkdir. Bir sözlə/, indi hərbi arsenalı kibernetikasız, kibernetik silahlasız təsəvvür etmək olmaz. Təlim fənlərindən fizika, riyaziyyat, bilavasitə bu tələbin ödənilməsində aparıcı rola malikdir. Digər tərəfdən XX əsrin kütləvi qırğın silahları olan atom, nüvə bakterioloji silahlar kimya və biologiyaya əsaslanır. Hazırda bu silahların sırasına daha çox təhlükəliləri əlavə olunmaqdadır. Bəs ali və orta ixtisas məktəblərinin fizika, riyaziyyat, kimya, biologiya dərslikləri həmin məsələləri özündə necə əks etdirir?

Məlumdur ki, hərbi texnika bütünlüklə fizikanın qanunlarına istinad edir. Məsələn, elə götürək "Arximed qanunu"nu. Bu qanundan hərbi texnikanın çox sahələrində istifadə olunur. Hərbi gəmilərin, silahlı qayıqların, qırıcı və bombardumançı təyyarələrin düzəldilməsi və hərəkəti başlıca olaraq məhz bu qanunun əsasındadır. Fizikanın imknalarından hərbi-vətənpərvərlik tərbiyəsi üçün bu cür istifadə etmək tələbələrin hərbi hazırlığını xeyli artırır. Məhz elə bunun üçün də fizika dərslərində aşağıdakı vəzifələri yerinə yetirmək müəllimlərin qarşısında başlıca məqsəd qoyulmuşdur.

1. Öy rədilən fiziki qanun və hadisələrdən hərbi texnikanın hansı sahələrində istifadə edildiyini konkret faktlar üzərində göstərmək.
2. Daxili yanacaqlı mühərrik, akkumlyator, elektrik generatoru, optik şüşələr və bu kimi cihazların hərbi işdə nə kimi rol oynamasını izh etmək.
3. Hərbi gəmilər, sualtı qayıqlar, derjabinlər, üzgəclər və aerostatların fiziki əsaslarını öyrətmək.
4. Kompas televiziya vasitəsi ilə təbii fəlakətləri göstərmək və s.
5. Radio, teleqraf, telefon, projektor binası, binokl və s. hərbi işdəki rolunu aydınlaşdırmaq.

Fizikadan bu kimi hərbi vətənpərvərlik mövzularının tədrisi zamanı diqqəti daha çox tələbələrin öyrənmiş olduqları biliklərin hərbi texnikaya tətbiqi məsələlərinə yönəltmək lazımdı. Yəni hər hansı fizika ilə əlaqələndirmək, misalların bir qismini həmin fiziki qanunları hərbi texnikaya tətbiqindən gətirmək lazımdır.

Tələbələrin hərbi-vətənpərvərlik tərbiyəsində "Riyaziyyat" fənninin də aparıcı rolu vardır. Riyaziyyat müasir hərbin əsasıdır. İndi hər bir çox sahələri – aviasiya, tank hərbi hissələri, raket bazaları, sualtı qayıqlar, döyüş gəmiləri riyaziyyatla idarə olunur.

Hərbi-vətənpərvərlik tərbiyəsi ilə əlaqədar kimya fənninin qarşısında aşağıdakı vəzifələr dayana bilər:

1. Tələbələrə Milli müdafiənin zəhərləyici döyüş maddələrini onların orqanizminə təsirini və bunlara fərdi mühafizə vasitələrini öyrətmək. Bu zaman əsas diqqəti əleyhiqazın quriluşu və onunla işləmək qaydasına, qaz təhlükəsindən qorunma yerlərinin quruluşuna, mühafizə vasitələrinə, suyun və ərzaq məhsullarının qorunmasına yönəltmək;
2. Yandırıcı maddələrin, bombaların söndürülən vasitələrini, yanğınla mübarizə üsularını mənimsəmək;
3. Üzvü və qeyri-üzvü partlayıcı maddələr, bunların növləri və müharibəyə tətbiqi qaydaları ilə tanışlığa diqqət yetirmək.

Kimya dərdliklərinin müəllifləri buna yaxın və oxşar bir məqsədi əsas götürərək, dərsliklərdə hərbi-vətənpərvərlik tərbiyəsini gücləndirmək məsələlərinə üstünlük verməlidirlər.

Baktereoloji silahdan qorunmaq üçün onun qorunma vasitələrini bilmək və əməl etmək lazımdır. Bu vasitələrə dərindən yiyələnmək üçün, ilk növbədə biologiyadan mükəmməl biliklər almaq zəruridir. Məhz elə bunu nəzərə alaraq biologiya dərslərinə bu qəbildən olan xeyli mövzu silinmişdir. Onların sırasına "Gəmiricilər", "Mikroblar", "Bakteriyalar", "Gənclər" və s. daxildir.

Biologiya müəllimi bu mövzuları kimyəvi və baktereoloji silahları tələbələrin hərbi-vətənpərvərlik tərbiyəsi ilə əlaqələndirmək diqqət mərkəzində saxlamlıdır. Belə ki, mümkün qədər bu kimi daxili silahlardan necə müdafiə olunmaq, onları necə zərərsizləşdirmək məsələlərini geniş izah etməlidir.

Göründüyü kimi təbiət fənlərinin məzmununda hərbi-vətənpərvərlik tərbiyəsi imkanları genişdir və müəllimlər müəyyən metodiki tələblərə əsasən bunu tələbələrə aşılayırlar, lakin bir həqiqəti də etiraf etmək lazımdır ki, təbiət fənlərində olan hərbi-vətənpərvərlik tərbiyəsinin hərbi vətənpərvərlik birliyi, bacarığı və vərdişlərini dərs prosesində tələbələrə geniş və əhatəli öyrtəmək xeyli çətindir. Bu çətinliklərdən çıxış yolunu biz həmin fənlər üzrə hərbi-vətənpərvərlik yaratmaqda və tələbələri onlara cəlb etməkdə görürük. Əgər belə dərnəklər təşkil edilərsə, plan əsasında həmin fənlərdən geniş hərbi bilik, bacarıq və vərdişlər aşılamaq olar.

Biz bu fikri əsas götürərək fizika, kimya və riyaziyyat fənlərinin məzmunuda olan hərbi-vətənpərvərlik mövzuları seçib ayrı-ayrı ixtisaslarda ardıcıl keçirilşərsə bunlar tələbələrin hərbi texniki biliklərlə silahlandırılmasına müsbət təsir göstərir.

Ali məktəb tələbələrinin tədbirlərdə hərbi-vətənpərvərlik tərbiyəsinin əsasını hərbi bilik, bacarıq və vərdişlərə yiyələnməsi təşkil edir. Bunlara nail olduqda, müasir hərbi texnika ilə silahlanmış Azərbaycan Silahlı Qüvvələr üçün savadlı hərbi texnikanı ustalıqla idarə edə bilən əsgər hazırlığını həyat keçirmək işi bir o qədər sürtələnər. Bu baxımdan ali məktəblərdə gənclərin çağırışaqədərki hazırlığı və fiziki tərbiyə tələbələrin hərbi-vətənpərvərlik tərbiyəsi dərslərinin keçirilməsi, hərbi-vətənpərvərlik tədbirlərinin keçirilməsi xüsusilə vacibdir.

Müasir dünyada elm və texnikanın sürətlə inkişaf etdiyi indiki dövrdə və Azərbaycanda azad, suverən, müstəqil və demokratik respublika yarandığı bir dövrdə çağdaş hərbi quruculuq texnikaya istinad edir. Radiotexnika, elektrotexnika, tele-texnika, Faks internet, kompyuter, kibernetika və s. sahəlöər hərbi hissələrlə hər bir əsgərin gündəlik fəaliyyət sahəsidir!

Hərbi-vətənpərvərlik tərbiyəsinin təşkilində əsas götürülən prinsiplərin düzgün seçilməsi və onların gücündən maksimum səmərə ilə istifadə edilməsi də çox vacibdir. Düzdür, tərbiyənin digər tərkib hissələri kimi hərbi-vətənpərvərlik tərbiyəsində də onun bütün prinsiplərindən istifadə edilir. Lakin bu da bir həqiqətdir ki, tərbiyənin ayrı-ayrı sahələrinin özünəməxsus fərdi cəhətləri var. Məhz

hərbi-vətənpərvərlik tərbiyəsinin bu fərdi cəhətlərinə görə bir qisim prinsiplər burada daha böyük əhəmiyyət kəsb edir.

Vətənpərvərlik insanı səciyyələndirən əm mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən məktəbin ən vacib vəzifələrindən olub.

Təlim prosesində ümummilli liderin həyatını böyüyən nəslə öyrətmək işi gənclərimizə daim aşılanmalıdır. Bu mətndən böyüyən nəsil öyrənməlidir ki, "Heydər Əliyev prezident olarkən dövlət bayrağımızı öpüb and içmişdir ki, həyatının qalan hissəsini də xalqına həsr edəcəkdir". Elə də oldu. O, ömrünün axırınadək Vətəni, xalqı üçün çalışdı. Böyüyən nəslin fəaliyyətində gənclərin hərbi-vətənpərvərlik hisslərinin artırıılmasını, asudə vaxtlarının təşkili, zərərli vərdişlərdəön azad olunması, elmə, təhsilə, idmana marağının artırılmasını, istedadların üzə çıxarılması ümummiloli lider Heydər Əliyevin həyat və fəaliyyətinin, onun çox nəhəng irsinin dərindən öyrənilməsi kimi məqsədlər ön planda durur. Azərbaycan dövlətinin apardığı gənclər siyasətinin tərkib hissəsini bədii yaradıcılığa, ədəbiyyata, incəsənətə meyl göstərən gənclərin üzə çıxarılması, onlar üçün əlverişli yaradıcılıq mühitinin formalaşdırılmasıdır, edilməlidir.

## ƏDƏBİYYAT

1. Mustafayeva R.Heydər Əliyev cənabları və gənc nəslin tərbiyə məsələləri "Azərbaycan məktəbi", 1999, №4, s.34-42
2. Cəfərov H.R.Azərbaycan Gənclər hərəkatı yeni inkişlaf mərhələsində.
3. Pedaqoji tədqiqatlar (elmi məqalələr məcmuəsi) I buraxılış, Bakı, 1999, 90s.
4. Ağayev Ə. "Kitabi-Dədə Qorqud"da şəxsiyyət probleminə dair "Azərbaycan məktəbi", 1997, №3
5. R.Baxşəliyev "Fiziki və hərbi təlimlərin fizioloji əsasları". ADPU. Bakı 2013.
6. hərbi-vətənpərvərlik tərbiyəsinin əhəmiyyəti və məzmunu. Bakı: Gənclik, 1980, s.6-7.

***Naxçıvan Dövlət Universiteti,***
***Dosent***

**JAVANSHIR ZEYNALLI**

## MILITARY PATRIOTIC EDUCATION IN THE PROCESS OF TEACHING MILITARY SPECIALTIES

Our national leader Heydar Aliyev expressed his views on patriotism to the youth as follows: "First of all, every young person should be a patriot. Now that Azerbaijan is living as an independent state, patriotism should be the most important duty and responsibility of every person, especially every young person. However, patriotism must be in a person himself. Duty does not mean that you demand patriotism, and he becomes a patriot.

***Keywords:*** *Homeland, patriotism, prosperity of the homeland, state, loyal, detailed, well-behaved, moral, nation, fanaticism, etc.*

**ДЖАВАНШИР ЗЕЙНАЛЛИ**

## ВОЕННОЕ ПАТРИОТСКОЕ ВОСПИТАНИЕ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ ВОЕННЫМ СПЕЦИАЛИЗАЦИЯМ

Наш национальный лидер Гейдар Алиев так выразил свои взгляды на патриотизм среди молодежи: «Прежде всего, каждый молодой человек должен быть патриотом. Сейчас, когда Азербайджан живет как независимое государство, патриотизм должен быть важнейшим долгом и обязанностью каждого человека, особенно каждого молодого человека. Однако патриотизм должен быть в самом человеке. Долг не означает, что вы требуете патриотизма, и он становится патриотом.

***Ключевые слова:*** *Родина, патриотизм, процветание Родины, государство, лояльный, внимательный, благовоспитанный, моральный, нация, фанатизм и т. д.*

*Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.10.2025**
**Son daxilolma tarixi:08.11.2025**